**AZƏRBAYCANDA IQTISADI ISLAHATLARA KƏNAR EKSPERT DƏSTƏYI**

# Makroiqtisadi siyasətə dair bəzi təkliflər

**Professor Rasim Həsənov**

**26 Sentyabr 2017**
Holiday İnn Bakı

# ARAŞDIRILAN MÖVZULAR

- **ÖZƏLLƏŞDIRMƏ: DÖVLƏT AKTIVLƏRINDƏN ISTIFADƏNIN SƏMƏRƏLILIYININ YÜKSƏLDILMƏSI VASITƏSI KIMI**

  **Ekspert Dr., Prof RASIM HƏSƏNOV**

- **AZƏRBAYCAN IQTISADIYYATININ DIVERSIFIKASIYA PROBLEMLƏRI: MANEƏLƏR VƏ HƏLLI YOLLARI**

  **Ekspert Dr. İNQILAB ƏHMƏDOV**

- **MANATIN DEVALVASIYASININ BIZNESƏ MƏNFI TƏSIRININ AZALDIMASINDA DÖVLƏT SIYASƏTI**

  **Ekspert SAMİR ƏLİYEV,**

- **AZƏRBAYCANDA DÖVLƏTIN INNOVASIYA SIYASƏTININ TƏKMILLƏŞDIRILMƏSI YOLLARI**

  **Ekspert KƏNAN ASLANLI**

# Makroiqtisadi siyasətin missiyası

- İqtisadçı gələcəyi görə bilmək naminə, indini keçmişin işığında öyrənməlidir

  ***C.M. Keyns***

- Makroiqtisadiyyat iqtisadiyyatın inkişafının şərtləri, amilləri və nəticələrini bütövlükdə öyrənir.

- Makroiqtisadiyyat müxtəlif səviyyələrdə iqtisadi sistemin strukturu və fəaliyyəti, davranışı və qərar qəbulu ilə bağlı yaranan münasibətləri ehtiva edir.

# Mövzu seçimini şərtləndirən amillər

- XXI əsrin əvvəllərində Dövlətin iqtisadi fəaliyyətdə iştirakının təsirliyi, dominantlığı güclənmişdir.
- Rəqəm “oyununa” əsaslanan, “ölkələrin beynəlxalq rəqabətliliyi” parametri, birja və TMK-ların fəaliyyəti nəticəsində, qiymətləndirici missiyasından mühüm iqtisadi amilə çevrilmişdir.
- Korporotivləşdirmənin dərinləşdirilməsi, mülkiyyətin ictimailəşdirilməsinin yüksək konsentrasiyasını şərtləndirmişdir.
- Klassik mahiyyətin ciddi dəyişməsi şərti ilə, iqtisadi fəaliyyətdə Dövlətin əsas şərtləndirici rolu de-fakto təmin olunmuşdur.

# Araşdırmanın konsepsiyası

✓***Dövlətin həll edici rolu,  böyük resurslara malik olması ilə yox, formalaşdırdığı milli təsərrüfatçılıq mühüti  və  apardığı iqtisadi  siyasətin, dövlət aktivlərinin iqtisadi inkişafı stimullaşdırma və zəruri məqamlarda  dəstəkləmə xarakteri ilə  şərtlənir.***

✓ İqtisadi diversifikasiya  ehtiva edir ki:  dövlət sektoru ilə kommersiya fəaliyyəti; qanunverici və insitusional idarəetmə;  dövlət sektorunda siyasət və idarəçilik  aydın şəkildə fərqlənməlidir.

✓Təsərrüfatçılığın xarakterinin dəyişməsi , rəqabətliliyin xüsusi  resursa çevirildiyi  şəraitdə istehsalın  innovativliyi əsas qiymətləndirici meyarlardan hesab edilir.

✓Devalvasiya,  bütövlükdə  real və maliyyə sektorlarına ciddi zərbə vurmaqla yanaşı milli iqtisadi sistemin geniş spektrli zəif nöqtələrini qabartdı.

✓ **Bazar münasibətləri şəraitində milli İqtisadi sistemin məhsuldar və  dayanıqlı inkişafının əsas təminediciləri**:  sistemin daxili inkişaf potensialının səfərbər olunması, "özünü inkişaf" qabiliyyətinin  bərpası,  resursların istifadəsinin səmərəliliyinin yüksəldilməsi  ilə ***səciyyələnir***

**Milli iqtisadi inkişafın davamlılığı və nəticəliliyinə çalışan**
***Ekspert fəaliyyətinin  əsas missiyası***
**iqtisadi sistemin təkmilləşdirilməsinə töhfələri verməkdir.**

# Nələri aşkar etdik və nələri bir daha təsdiq etdik

- Milli iqtisadi sistemin nailiyyətləri, inkişafın yeni keyfiyyət mərhələsini hədəfləyən ambisiyalı -“Azərbaycan 2020: gələcəyə baxış” Konsepsiyası və “Strateji Yol Xəritələrinin” qəbulunu şərtləndirmişdir.
- Lakin şaxələndirilmədə, daxili inkişaf potensialının səfərbərliyi, “özünü inkişaf” qabiliyyətinin bərpası və inklüzivlik şərtlərinə riayət edilməməsi, milli sistemin konyunktur dəyişiklərinə volatilliyinin hədsiz yüksəlməsi və inkişaf potensialının dayanıqlığının kəskin azalmasını doğurmuşdur.
- Dünya neft bazarında konyunktur dəyişikləri və iqtisadi siyasətin “boşluqları” fonunda, milli valyutanın 2015-ci ildə iki mərhələdə qaçılmaz, kəskin devalvasiyası, iqtisadiyyatın fəaliyyəti üçün böyük resurs və bazar problemləri yaratdı.

# Dövlət aktivlərinin idarəçiliyi xüsusiyyətləri

Azərbaycan iqtisadiyyatında yaranmış çağdaş durum əslində, ***dövlət aktivlərinin idarəçiliyi xüsusiyyətlərindən qaynaqlanan, struktur və institusional xarakterlidir***.

Təsərrüfatçılıq mexanizminin transformasiyası və mülkiyyətin dövlətsizləşdirilməsinin başa çatdırılmaması səbəbindən Milli iqtisadiyyatın davam edən və özündə "böhran potensialını" daşıyan tranzitivliyinin şərtləndirdiyi mühüm arzu olunmaz xüsusiyyətlərin aradan qaldırılması –

***özəlləşdirmə və dövlət aktivlərinin idarəçiliyi fəlsəfəsinə yeni yanaşmanın tətbiqini aktuallaşdırır.***

# İnkişaf potensialının məhsuldarlığı problemləri

❖ Azərbaycanda dövlət aktivlərinin idarəçiliyində yol verilən ***qeyri-səmərəliliklər:***

- iqtisadi siyasətin məqsədlər piramidasında iyerarxiyaların düzgün müəyyənləşdirilməməsi,
- müxtəlif səviyyəli idarəedicilər tərəfindən qərar qəbulunda korporativ maraqlarla tənzimlənən subyektivliyin yüksəkliyi.

❖ Özəlləşdirmənin ***seçilmiş məqsədlərinin*** :

- sahibkarlar təbəqəsinin formalaşdırılması;
- ictimai mülkiyyətin ədalətli bölgüsünün təmin edilməsi
- Dövlət büdcəsinin yeni gəlir kanalının yaradılması vəzifələrinin ***məntiqi uyuşmazlığı, onun nəticələrinin qeyri-məqbulluğunu şərtləndirmişdir***.

# Aktivlərin aşağı səmərəliliyi səbəbləri və nəticələri:

- Qanunlarla verilən  güzəştlər sayəsində, dövlət müəssisələrinin ictimai məsuliyyəti və cavabdehliyi ilə təsərrüfatçılıq nəticələrinin adekvatlığı prinsipinin qorunmaması;
- *Məsələn "təkrar borc sazişləri"  "təcrübəsi" "kredit öhdəliyi" kimi  ciddi nizamlayıcı və qeyri-zəruri xərclərin qarşısını ala biləcək, təsirli  iqtisadi aləti sanki "yoxa çıxarmışdır* ". Nəticədə, Dövlət büdcəsində xarici borc öhdəliklərinə xidmət xərcləri sürətlə artmaqdadır.
- Dövlət müəssisələrinin ənənəvi  və ya "xüsusi statusları" sayəsində de-fakto əldə etdikləri "qeyri-leqal idarəetmə funksiyaları" hesabına, bir çox hallarda inhisarçılıq səviyyəsinə çatan daha əlverişli biznes mühitinə malik olması;
- Mühüm struktur yaradıcı əhəmiyyətə malik, böyük həcmdə dövlət aktivlərini idarə edən bank - kredit müəssisələri, o cümlədən Mərkəzi bankın real sektorun tələblərinə adekvat olmayan qeyri-məqbul "müstəqil" fəaliyyəti;

- Banklar, real sektorda de-fakto formalaşmış mənfət normasına və Mərkəzi bankın uçot dərəcəsinə nisbətən, “hədsiz” yüksək kredit faizlərinin yaranmasını dəstəkləməklə bərabər, beynəlxalq maliyyə bazarlarından ucuz kredit resuslarını cəlb etməklə, uzun illər ərzində manatın məzənnəsinin süni möhkəmlənməsinin stimullaşdırılmasına xidmət etmişlər.
- Neft gəlirlərinin böyük axını şəraitində yüksək gəlirlər hesabına, ciddi valyuta ehtiyatları cəmləşdirən Mərkəzi Bankın uzun dövr ərzində inflyasiya hədəflənməsinə üstünlük verməsi, manatın “bahalaşması” və kredit faizlərinin yüksəkliyini şərtləndirən əsas amillərdən biridir.
- Son illərdə öz valyuta ehtiyatlarını 15 mlrd. dollara qədər yüksəldən (dövlət ehtiyatlarının təxminən 30%) Mərkəzi Bank, “bank sisteminin sağlamlaşdırılması” xərclərinin zəruriliyini əsaslandıraraq, mövcud qanunvericiliyə uyğun öz mənfəətindən, mülkiyyətçi gəlirləri kimi Dövlət büdcəsinə son illərdə ayırmalar etməmişdir.
- Yüksək likvidli aktivlərin, vahid xəzinə hesabının qalığı və onun idarəetməyə verilməsindən daxilolmaların azalan dinamikası - qalığın idarə olunmasının gəlirliyi: 2015-ci ildə - 0.26%, 2016-cı ildə -0,27% olmaqla, 2017-ci ildə isə 0,7% nəzərdə tutulmuşdur.

- Dövlət borcuna və öhdəliklərinə  xidmət xərclərinin sürətlə artması fonunda, borc “yaradan”  müəssisələrin, mülkiyyətçi gəliri kimi, Dövlət büdcəsinə ayırmaları “yoxa “ çıxmışdır;   Məsələn, 2017 ildə “Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər”, “Dövlət əmlakının, özəlləşdirilən dövlət müəssisə və obyektlərinin altındakı torpaqların icarəyə verilməsindən daxil olmalar” “Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxil olmalar” üzrə  - **5,9  mln. m, büdcə gəlirinin    0.15% qədər nəzərdə tutulur.**
- Dövlət mülkiyyətinin özəlləşdirilməsindən daxilolmaların  ənənəvi olaraq böyük kəsirlərlə icra edilməsi və özəlləşdirilmiş müəssisələrin tam gücü ilə fəaliyyət göstərməməsi və s. Məsələn, 2016-cı ildə, özəlləşdirilmə üzrə 100.0 mln.manat  büdcə tapşırığı  4,7% səviyyəsində icra olunmuşdur.
- 2016-cı ildə Səhmlərində dövlətin payı olan müəssisələrin dvident kimi büdcə ayırmaları cəmi 617.0 min manat və ya tapşırığın 11.7% qədər olmuşdur.

# İqtisadiyyatın  diversifikasiyası

- İqtisadiyyatın neftdən asılılığının azaldılması və iqtisadi diversifikasiyanın aparılması uzun illərdir ki, müzakirə predmeti olsa da, bu sahədə ilk sistemli yanaşma, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi" və "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair strateji yol xəritəsi" hesab edilə bilər.
- Sürətli artım dövründə  arzu edilən  iqtisadi diversifikasiya, tənəzzül dövründə alternativi olmayan məsələyə çevrilmişdir.   İslahatların səmərəliliyi və real nəticə əldə edilməsi bilavasitə iqtisadi diversifikasiyanın həyata keçirməsini zəruri edir.
- "BMT ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıq sahəsində əsas strateji prioritet hədəf iqtisadi diversifikasiyaya və məşğulluğun artımına əsaslanmış  davamlı və inklyziv inkişafa nail olmaqdır".             **2016-2020 -ci illər üçün tərəfdaşlıq Çərçivə Sənədi (UNAPF)**
- İqtisadi diversifikasiyanın uğurla həyata keçirilməsi üçün  yalnız  iqtisadi amillər kifayət etmir. Təcrübə göstərir ki, bunun üçün şərtləndirici amillər :- siyasi iradə, qanunun aliliyinin təmin edilməsi, institusional islahatların aparılması, insan kapitalına yatırımlar vacibdir.

- Monetar siyasət diversifikasiyanın hədəfləri ilə həmahəng olmalıdır. İqtisadi diversifikasiya pul-kredit siyasətini liberallaşmasını tələb edir. Məhdudlaşdırıcı addımlar: uçot dərəcəsinin artırılması, valyuta məzənnəsinin proqnozlaşdırılan olmaması, kredit resurslarına əlçatanlığın çətinliyi, bahalı kreditlər maneələr sayılır.

- Resursla zəngin ölkələrdə gəlirlərin idarəedilməsi nəzəriyyəsi göstərir ki, büdcənin tsiklik dinamikasının (gəlirlər artanda xərclər artır və əksinə, azalanda xərclər də azalır) qarşısını almaq və gəlirlərin davamlı olaraq stabil idarəetməsinə nail olmaq üçün artım dövründə gəlirlərin bir hissəsinin əlahiddə yığıma yönəltməklə, gəlirlər azalanda isə xərclərin artımını hədəf götürməklə stabilliyə nail olmaq mümkündür.

- Vergi yükünün azaldılması sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlavə imkan, iqtisadi diversifikasiyanın nəticəli olması üçün isə real şərait yarada bilər.

- İqtisadi və ya ixrac diversifikasiyasına birmənalı üstünlük vermək düzgün olmaz. İdxalı əvəzləyən yeni istehsal yaradılması iqtisadi və ixrac diversifikasiyasına zəmindir.

# İqtisadiyyatın innovativliyi

- Çağdaş Azərbaycan iqtisadiyyatı, azalan neft gəliri fonunda innovasiyalara daha çox ehtiyac duyur. Empirik tədqiqatlar neft-qazla zəngin ölkələrin iqtisadi artımda digər ölkələrdən geri qaldığı və davamlı iqtisadi böyümə üçün texnoloji yeniliklərə daha çox ehtiyac duyduğunu göstərir. (1960-2006-cı illik dövrdə neft ölkələri ortalama illik 1.67%, qeyri-neft ölkələri isə müvafiq olaraq 1.76% iqtisadi artıma malik olub).
- Azərbaycanın çağdaş iqtisadi inkişaf strategiyasının mühüm əlaməti - qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma nail olunması və iqtisadiyyatın şaxələndirilməsi məqsədi ilə beş əsas faktora: sərmayələr, institutlar, insan kapitalı, infrastruktur və biznes mühitinə əsaslanan innovasiyaların tətbiqinin genişləndirilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsinin dövlət siyasətinin prioritetinə çevirilməsi hesab edilə bilər.
- Azərbaycan Qlobal İnnovasiya İndeksində 2016-cı ildə 128 ölkə arasında 85-ci, o cümlədən,"*Bilik və texnologiya məhsulları*" üzrə alt kateqoriya-sında 101-ci olub. Qlobal Rəqabətlilik İndeksinin (*Global Competitiveness Index 2016-2017*) innovasiya sub-indeksində isə ölkəmiz 138 ölkə arasında 44-cü. patent müraciətləri alt-kateqoriyasında isə 80-ci yeri tutur.
- Effektiv innovasiya siyasəti keyfiyyətli dövlət idarəetmə aparatı (*maraq qruplarının təsirindən müstəqil*) və təkmil biznes mühit islahatları tələb edir.

# Milli valyutanın "qaçılmaz" devalvasiyası

- İnflyasiya səviyyəsinin artması əhalinin sosial vəziyyətinin gərginləşməsinə, real gəlirlərin azalmasına gətirir. Qiymətlərin bahalaşması fonunda əhalinin xərcləri artır, iqtisadi aktivlik aşağı düşür və əhalinin gəlirləri azalır.
- Makroiqtisadi sabitliyin təminatçısı olan invesitisiyaların artımında azalma müşahidə edilir.
- Ölkədən kapital axının artması makroiqtisadi sabitliyin əsas indikatoru olan tədiyyə balansında tarazlığın mənfiyə doğru dəyişməsinə səbəb olub.
- İqtisadiyyatın pulla təminat səviyyəsi kəskin azalmışdır. 2015-2016-cı illərdə Mərkəzi Bank iqtisadiyyatı yüksək inflyasiyadan sığortalamaq üçün sərt-pul kredit siyasətinə keçərək, uçot dərəcəsini kəskin artırmaqla iqtisadiyyatın monetizasiaya səviyyəsini aşağı salmağa nail oldu.
- Milli valyutanın devalvasiyası dövlət borclarının qaytarılması imkanlarını çətinləşdirir, xarici borc öhdəliklərinin ÜDM-də payının artmasını şərtləndirir.
- Devalvasiya nəticəsində böhrana hazır olmayan banklar, risk menecmentinin düzgün qurulmaması səbəbindən ağır duruma düşüb. Yüksək neft gəlirləri hesabına iri həcmli büdcə və özəl pulların dövriyyəsi hesabına gəlir əldə etməyə öyrəşmiş banklar dövriyyənin kəskin azalmasının fəsadlarını yaşamaqla real sektora ciddi zərər vurur, sahibkarlıq mühütini daha da pisləşdirir.

# Dövlət aktivlərinin idarəçiliyi üzrə siyasət tövsiyələri

- Dövlət aktivlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə dövlət xidmətlərinin vahid idarəçilik prinsipi üzrə təşkilinin təmin edilməsi;
- Büdcə və Rəqabət məcəllələrinin qəbul edilməsi;
- Nəticəyə hədəflənən icmal büdcə modelinin tətbiqi:
- Fiskal və monetar siyasətin koordinasiyasının gücləndirilməsi və real sektora hədəfləndirilməsi;
- Dövlət gəlir və xərclərinin büdcədə tam akkumulyasiyasının təmin edilməsi;
- Dövlət müəssisələrinin "xeyriyyəçilik" missiyalarının qadağan edilməsi;
- Təkrarlanan funksiyaları icra edən orqanların birləşdirilməsi ilə idarəetmə xərclərinin azadılması;
- İdarəetmə sistemində inzibatçılıq və maliyyələşdirmə modellərinin adekvatlığının təmin edilməsi və s.

# Özəlləşdirmənin səmərəliliyinin yüksəldilməsi üzrə siyasət tövsiyələri

- Cefferson yanaşmasına əsasən, “daha azı idarə edən daha yaxşı idarə edər”
- Özəlləşdirilmənin əsas missiyası, iqtisadiyyatın “dövlətsizləşdirilməsi” kimi qəbul edilməlidir;
- Özəlləşdirmənin realizasiyası, Dövlətin bilavasitə iqtisadi fəaliyyətdən rasional və sürətli uzaqlaşmasını təmin etməlidir;
- Özəlləşdiriləcək dövlət müəssisələri sferası mümkün qədər genişləndirilməlidir;
- Nəzərdə tutulmuş müəssisə və obyektlərin, hissələrin, torpaq sahələrinin özəlləşdirilməsinin başa çatdırılmalıdır;
- Özəlləşdirmədən dövlət büdcəsinə daxilolmalar vaxtında və tam həcmdə təmin edilməlidir;
- Ölkədə fond bazarının, korporativ müəssisələrin səhmlərinin daimi bazarının təmin edilməlidir və s.

# Dövlət borclanması üzrə siyasət tövsiyələri

- ✓ Nəzarət zərfi dövlətə məxsus səhmdar cəmiyyətlərində və şirkətlərində mövcud kredit xəttlərinə fərdi yanaşmaqla borcun tənzimlənməsi;
- ✓ Mütəmadi olaraq valyuta risklərinin qiymətləndirilməsi;
- ✓ Kredit layihələri və resursların istifadəsinə nəticəlilik və səmərəlilik baxımından maliyyə nəzarətinin təmin edilməsi;
- ✓ Dövlət borcunun xarakteri nəzərə alınmaqla, ən aşağı xərclə tələb olunan maliyyələşmənin təmin edilməsi;
- ✓ Xarici makroiqtisadi şokların büdcə və xərclərə təsirinin azaldılması məqsədilə borc yükünün valyuta prioritetləri müəyyənləşməlidir.

# İqtisadiyyatın diversifikasiyası üzrə siyasət tövsiyələri

- Milli iqtisadiyyatın rasional diversifikasiyasını təmin etmək üçün, Hökumət hazırda apardığı sərt pul kredit siyasətinə ciddi dəyişiklik etməli, tədricən onun nisbətən yumşaq və liberal monetar siyasəti ilə əvəzləməlidir.
- Bunun üçün makroiqtisadi hədəflər dəyişilməli, Neft Fondunun transferlərinin büdcədə nisbi və mütləq payı artırılmalıdır.
- İqtisadi diversifikasiyanın uğurla həyata keçirilməsi üçün, habelə daha öncə buraxılmış səhvləri təkrarlamamaq üçün kiçik və orta sahibkarlığın inkişafı yönümündə mövcud maneələr aradan qaldırılmalıdır.

# Devalvasiyanın nəticələri ilə mübarizə üzrə siyasət tövsiyələri

❖ Devalvasiyanın biznesə mənfi təsirinin azaldılması üçün dövlət siyasətinin istiqamətləri :

- Əksdollarlaşma Strategiyası hazırlamalı və həmin sənəd çərçivəsində:
- Kapital bazarının inkişaf etdirilməsi,
- Bank sektorunun liberallaşdırılması və rəqabətin gücləndirilməsi;
- Alternativ maliyyə alətləri bazarının inkişaf etdirilməsi, o cümlədən milli valyutada buraxılan dövlət istiqrazlarının inflyasiyaya uyğun indeksləşdirilməsi;
- Xarici valyutada olan əmanətlərə dair tələblərin sərtləşdirilməsi *(məcburi ehtiyat normalarının 1%-dən 3%-ə artırılması, əmanətlərdən gəlirlərin vergiyə cəlb edilməsi);*
- Milli valyutada olan əmanətlərin stimullaşdırılması *(əmanətlərin sığortalanma faizlərinin qaldırılması);*
- Manat əmanətlərini kəskin məzənnə dəyişikliyindən sığortalamağa imkan verən indeksləşmə mexanizminin yaradılması;
- Xarici valyutada olan istehlak kreditlərinin milli valyutaya konvertasiyası imkanlarının araşdırılması və təmin edilməsi;
- Mərkəzi Bank tərəfindən banklara milli valyutada məqsədli kreditlərinin verilməsi və s.

- Dövlətin yaxından iştirakı ilə ixtisaslaşdırılmış sahə banklarının yaradılması.( Aqrar İnkişaf, İxrac , İnvestisiya Bankı və s.)
- KOS-lara verilən kreditlərinin sığortalanması və təminatı fondunun yaradılması üçün qanunvericiliyin formalaşdırılması;
- Kredit qoyuluşunda tətbiq edilən daşınmaz əmlakın girov mexanizminin sadələşdirilməsi;
- Daşınar əmlakın girov mexanizminin və dövlət reyestrinin yaradılmasını tənzimləyən "Təminatlı əqdlər haqqında" Qanunun qəbulu;
- Vençur maliyyələşməsinin inkişafı, innovasiyalara yönələn investisiyaların stimullaşdırılması üçün qanunvericilik bazasının təkmilləşdirilməsi. "Vençur fondları haqqında"qanun qəbulu və "İnvestisiya fondları haqqında" qanuna dəyişiklik nəzərdə tutula bilər;
- Kiçik biznesin dəstəklənməsi üçün mikromaliyyələşmə proqramının həyata keçirilməsi, françayzinq, faktorinq, lizinq kimi xidmətlərə güzəştlər sisteminin təmin olunması.
- Sahibkarlıq subyektləri üçün vergi güzəştlərinin tətbiqi: Nağdsız ödənişlərə keçidin sürətləndirilməsi üçün vergi güzəşlərinin tətbiqi. Mikromüəssisələrin bütünlükdə sabit vergi sisteminə keçidi; Sahibkarların vergi yükünün azaldılması üçün sosial sığorta dərəcəsinin 22%+3% sistemindən 15%+10% sisteminə keçidinin təmin edilməsi.

***DİQQƏTİNİZƏ GÖRƏ***

***TƏŞƏKKÜR EDİRƏM!***